**AZƏRBAYCAN RESPUBLİKASI**
**AUDİTORLAR PALATASI SƏDRİNİN**
**ƏMRİ**

**Bakı şəhəri** **№ 55** **30 dekabr 2013-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının və Palata Şurasının 2014-cü il üzrə iş planının icrasının təmin edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2013-cü il 19 dekabr tarixli 248/1 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planında və Palata Şurasının 2014-cü il üzrə iş planında ölkəmizdə auditor xidmətinin inkişafını və tənzimlənməsini təkmilləşdirmək, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində müstəqil auditin rolunu daha da gücləndirmək, beynəlxalq audit təcrübəsinin ölkəmizdə tətbiqini təmin etmək, audit sahəsində maarifləndirmə və kadr hazırlığı işinin səviyyəsini yüksəltmək, auditor xidmətinin keyfiyyətinə nəzarətin vəziyyətini yaxşılaşdırmaq, Beynəlxalq Audit Standartlarının tətbiqini daha da genişləndirmək və «Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası»nda 2014-2020-ci illər üzrə nəzərdə tutulmuş tədbirlərin vaxtında və yüksək səviyyədə yerinə yetirilməsini təmin etmək məqsədilə

**Ə M R  E D İ R Ə M:**

1. Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planına uyğun olaraq məsul şəxslərə (V.Novruzov, Q,Bayramov, N.Talıbov, S.Gülməmmədov) tapşırılsın ki, müvafiq mövzular üzrə plan-proqramların hazırlanmasını, müzakirəsini və təsdiqini 2014-cü il 1 fevral tarixinədək başa çatdırsınlar.
2. Müvafiq struktur bölmələrin rəhbərlərinə (Q.Bayramov, M.Hacıyev, M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, R.Cəfərov) tapşırılsın ki, rəhbərlik etdikləri bölmələrdə nəzərdə tutulmuş mövzular üzrə əməkdaşlar arasında iş bölgüsünün aparılmasını təmin etsinlər və bu barədə 2014-cü il 1 fevral tarixinədək rəhbərliyə məlumat versinlər.
3. İş planlarında nəzərdə tutulmuş müvafiq mövzular üzrə işçi qruplarının, redaksiya heyətlərinin və təşkilat komitələrinin yaradılması barədə təkliflərin məsul şəxslər tərəfindən 2014-cü il 1 fevral tarixinədək təqdim olunması təmin edilsin.
4. Bu əmr və Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planı və Palata Şurasının 2014-cü il üzrə iş planı Palatanın internet səhifəsində yerləşdirilsin.
5. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**